# Kreml Vardanyanı "ofsayta" saldı

## Xankəndidəki ermənilər Rusiya sülhməramlılarının korrupsiya əməllərindən beziblər

Son vaxtlar Xankəndidə terrorçu birləşmələrin başçısı Araik Arutyunyanla "dövlət naziri" Ruben Vardanyan arasında ziddiyyətlərin artıq yeni mərhələsi başlayıb.

Məlumdur ki, erməni milyarderin əsas məqsədi əvvəlcə Qarabağda separatçıların rəhbəri olmaq, daha sonra Ermənistana transfer niyyətini reallaşdırmaq idi. Ancaq Vardanyanın, son qalmaqallı açıqlamalarına görə separatçıların "dövlət naziri"nin vəzifəsindən azad edilməsi gündəmə çıxıb. Beləliklə, bu cütlük arasında ziddiyyətlərin artıq yeni mərhələsi başlayıb.

Belə olacağı təqdirdə Kremlin hansı reaksiyanı verəcəyi çox maraqlıdır. Lakin gələn xəbərlər Moskvanın milyarderə qarşı soyuq münasibət bəslədiyini deyir. Belə ki, "Jamanak" qəzeti yazır ki, Rusiya da Ruben Vardanyanın arxasından çəkilməyə başlayıb. Məlumata əsasən, Kreml Vardanyanın istefaya göndəriləcəyi təqdirdə hər hansı bir reaksiya verməyəcəyi barədə Ermənistanı və Qarabağdakı terrorçu birləşmələri əmin edib. Hətta bu yaxınlarda İrəvana göndərdikləri ismarıcda bildiriblər ki, separatçıların rəsmisi olan Vardanyan onlar üçün əvvəlki əhəmiyyətini saxlamayıb. Qeyd olunub ki, Arutyunyan artıq Balasanyanı geri qayıtmağa razı salıb bilib: "Çox güman ki, yaxın bir neçə gün ərzində onu hərbi müşavir təyin edib azərbaycanlılarla danışıqları davam etdirmək səlahiyyəti verəcək".

Nəşr qeyd edir ki, Vitali Balasanyanın "vəzifə"dən çıxarılması məsələsini "dövlət naziri" Ruben Vardanyan qaldırmış, onun Qarabağ ermənilərinin maraqlarını qoruya bilməyəcəyini, çünki danışıqlar aparan şəxs kimi Azərbaycanın tələblərini yerinə yetirməyə meyilli olduğunu iddia etmişdi. Üstəlik, Vardanyan hesab edir ki, ümumiyyətlə, Azərbaycanla danışıqlar üçün mövzu yoxdur.

"Araik Arutyunyan Vitali Balasanyanı yenidən arenaya gətirməklə bir neçə məsələni həll edir: azərbaycanlılarla danışıqların əleyhinə olmadığını göstərməyə çalışır, baş nazir Nikol Paşinyana Ruben Vardanyanın qərar qəbul edən şəxs olmadığını göstərir, eyni zamanda sonuncunun istəyinin əksinə olaraq, Balasanyanı yenidən öz işinə qaytarır" deyə "Hraparak" yazıb.

Bu arada erməni ictimai xadim Mikayel Hayriyan öz feysbuk səhifəsində yazıb ki, bir neçə ay əvvəl Ruben Vardanyan nümayişkaranə şəkildə Rusiya Federasiyasının vətəndaşlığından imtina edib və guya "erməniləri xilas etmək" üçün Qarabağa gəlib. Qarabağ və Qarabağ sakinləri özünü təqdim etmək və oyunlar üçün sınaq meydançası deyil: "R. Vardanyan mümkün riskləri və problemləri dəyərləndirmədən, heç bir geosiyasi mərkəzdən dəstək almadan, yəqin ki, müəyyən qüvvələrə xidmət etmək üçün və başqa uzaq məqsədlər üçün Qarabağa köçüb. Yalnız üç aydan sonra biz bunlara əmin olduq. 1. Ruben Vardanyan Rusiyanın planı deyil, çünki Rusiyanın planı Qarabağı dağıtmağa yönələ bilməzdi. 2. Özünü rus proqramı kimi təqdim edən R. Vardanyan bütün dünyanı bizə qarşı qaldırıb. 3. R. Vardanyan bir neçə ictimai sözlə Qarabağın iqtisadiyyatını, "dövlət quruluşu"nu məhv etdi. 4. Bizim elə "məmurumuz" var ki, heç olmasa daha pis vəziyyətimiz olmasın deyə danışmamalıdır. 5. Qarabağ "rəsmisi" ictimai çıxışında Qarabağı tərk etmək və ya Azərbaycanın hakimiyyəti altında yaşamaq tezislərini təqdim etdi. 6. Bizim elə bir "dövlət nazirimiz" var ki, onun əsas müdafiə tezisi Azərbaycan tərəfindən qəbul edilməmək saxta bəhanəsidir".

Ermənistanın "1in.am" nəşri yazıb ki, Laçın yolunda Rusiya sülhməramlıları gizli korrupsiya sxemləri ilə Qarabağa siqaret, dərman və digər ləvazimatlar aparırlar. Nəşr qeyd edib ki, üstəlik, söhbət kifayət qədər böyük puldan gedir: "Əldə olunan məlumata görə, məsələn, sülhməramlılar Ermənistandan Xankəndiyə 100 min dram müqabilində 10 qutu bahalı siqaret gətirirlər. Bizə onu da bildirdilər ki, Laçın yolunun bağlanması ilə əlaqədar bir aya yaxın Qarabağda qalan iki kriminal avtoritet bu yaxınlarda Rusiya sülhməramlıları tərəfindən 10 min dollara Ermənistana gətirilib".

Qeyd edilənlər separatçılar arasında ümumi böhranın daha da dərinləşəcəyindən xəbər verir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 24 yanvar.- S.8.